AZƏRBAYCAN RESPUBLİKASININ
DÖVLƏT STATİSTİKA KOMİTƏSİ
Qiymət statistikası şöbəsi

# İSTEHSALÇI QİYMƏT İNDEKSLƏRİNƏ DAİR KEYFİYYƏT MƏRUZƏSİ

**15.04.2013**

Azərbaycan Respublikası, Bakı şəhəri, İnşaatçılar prospekti 136
elmang@azstat.org, + 994 12 538 52 72

# Mündəricat

1. Statistik prosesə və məhsullara giriş........................................................ 3

2. Aktuallıq........................................................................................ 6

3. Dəqiqlik........................................................................................ 6

4. Vaxtlı-vaxtında olma və tam vaxtında yerinə yetirmə................................ 8

5. Bərabər giriş və aydınlıq........................................................................ 9

6. Uyğunluq (əlaqələndirmə) və müqayisəlilik............................................... 10

7. Çıxış keyfiyyət komponentləri arasında seçim........................................... 11

8. İstifadəçi tələbatlarının və qavramalarının qiymətləndirilməsi.................. 11

9. İqtisadi səmərəlilik və respondentlərə düşən yük...................................... 11

10. Məxfilik, şəffaflıq və təhlükəsizlik........................................................... 12

11. Yekun.......................................................................................... 12

## 1. Statistik prosesə və məhsullara giriş

***Sorğunun qısa təsviri***

Qiymət statistikası şöbəsi son istehlak üçün satılan mal və xidmətlərin, sənaye məhsullarının istehsalçı qiymətlərinin, malların idxal və ixrac qiymətlərinin, kənd təsərrüfatı məhsullarının qiymətlərinin, tikinti işlərinin qiymətlərinin, nəqliyyat, poçt, telekommunikasiya tariflərinin müşahidəsini aparır.

ÜDM-in formalaşdırılmasında istifadə olunan əsas komponentlərdən biri istehsalçı qiymət indeksləridir. İstehsalçı qiymət indeksləri sənaye və satılmış kənd təsərrüfatı məhsullarının istehsalçı qiymətləri indekslərini və tikinti işlərinin qiymətləri indeksini özündə birləşdirir. Sənaye məhsullarının istehsalçı qiymətləri indeksi (SQİ) iqtisadiyyatda qiymət proseslərinin öyrənilməsi və səciyyələndirilməsində, iqtisadi fəaliyyət növlərinin ayrı-ayrı məhsulları üzrə qiymətlərin dəyişilməsinin müqayisəli təhlilində, əsas fondların yenidən qiymətləndirilməsində, makro səviyyədə müxtəlif iqtisadi hesablamaların və proqnozlaşdırılmaların aparılmasında, sənaye məhsulları istehsalının ümumi həcminin dəyərinin müqayisəli qiymətləndirilməsində və ÜDM-in deflyatorunun hesablanmasında istifadə edilir. Bundan başqa təsərrüfat subyektləri uzunmüddətli alış və satış müqavilələri bağlayan zaman alıcı və satıcıların gözlənilməz qiymət dəyişikliklərindən müdafiəsini təmin etmək məqsədilə sənaye məhsullarının istehsalçı qiymət indekslərindən istifadə edirlər.

***Müşahidə vahidləri***

Sənaye məhsullarının istehsalçı qiymətlərinin dəyişilməsinin müşahidə olunması İqtisadi Fəaliyyət Növləri Təsnifatının "Mədənçıxarma sənayesi", "Emal sənayesi", "Elektrik enerjisi, qaz, buxar və kondisiyalaşdırılmış hava ilə təchizat" və "Su təchizatı, tullantıların təmizlənməsi və emalı" seksiyalarına uyğun olaraq, baza müəssisələrinin seçmə şəbəkəsi üzrə aparılır. Seçilən sənaye müəssisələrinin məcmusu sənaye məhsullarının istehsalçı qiymətlərinin təhlilini aparmaq üçün reprezentativ olmalıdır. Yəni, sənaye məhsulları istehsalçılarının iqtisadi fəaliyyətin bütün növləri üzrə xüsusiyyətləri əks etdirilməli, İqtisadi Fəaliyyət Növləri Təsnifatının yuxarıda sadalanan seksiyalarına uyğun olaraq müəssisələrin ən azı 30%-

i müşahidəyə cəlb edilməlidir. Baza müəssisələrini seçərkən aşağıdakılar rəhbər tutulur:

- baza müəssisələrinin siyahısına ölkəyə xarakterik olan mal və mal qrupları siyahısına salınmış məhsullar istehsal edən müəssisələr daxil edilir;
- baza müəssisələrinin tərkibinə ölkənin sənayesində mühüm rol oynayan müəssisələr daxil edilir;
- baza müəssisələrinin tərkibinə müxtəlif mülkiyyət növü və təşkilati-hüquq formalarına (dövlət, xüsusi, bələdiyyə, səhmdar, kooperativ və s.) malik olan müəssisələr daxil edilir.

Baza müəssisələrinin siyahısına məhsul istehsalı daimi olmayan, təsadüfi və ya birdəfəlik xarakter daşıyan müəssisələr daxil edilmir. Sənaye müəssisələrində istehsalçı qiymətlər üzərində müşahidəni aparmaq üçün seçilən siyahıya dəyişikliklər yalnız hesabat ilinin əvvəlində edilir.

***Əhatə***

Müşahidə üçün seçilmiş təmsilçi malların növləri ölkə ərazisində istehsal olunan və istehsalçı tərəfindən satılan bütün sənaye məhsulları qrupunu əhatə etməlidir. İlk növbədə iqtisadi fəaliyyət növlərinin xüsusiyyətlərinə əsasən ölkə üzrə sənaye məhsullarının istehsalçı qiymətləri indeksinin hesablanması üçün zəruri olan təmsilçi malların və mal qruplarının siyahısı mərkəzləşdirilmiş qaydada formalaşdırılır və həmin siyahıda təmsilçi malların ümumi xarakteristikası göstərilir. Müşahidə olunan təmsilçi-mal daxilində məhsulun bir neçə növü üzrə qiymət qeydiyyatının aparılması istehsal və satışın qeyri-stabilliyi, mövsümi amillərin təsiri, satılan sənaye məhsullarının çeşidinin tez-tez dəyişməsi nəticəsində yaranan qiymət kənarlaşmalarının indekslərə təsirinin qarşısını almağa imkan verir. Müşahidə üçün seçilmiş mal növlərinin tərkibinə qiymət məlumatlarından yalnız ölkənin sənaye istehsalında böyük həcmə malik (məsələn, neft, sement, kərpic və s.) və müqayisəsi mümkün olan mal növləri daxil edilir. Konkret məmulatların (markası, artikulu və s.) seçilməsi zamanı qiymət qeydiyyatında aşağıdakılar nəzərə alınır:

- öyrənilən məmulat müəssisə tərəfindən uzun müddət ərzində daim istehsal edilməlidir;

- məmulat verilmiş məhsul qrupunun ümumi buraxılışında üstünlük təşkil etməli, xüsusiyyətlərin nisbi sabitliyində xarakterizə olunmalı və təmsil etdiyi mal qruplarının qiymət dinamikasını əks etdirməlidir.

Məhsulların ayrı-ayrı növlərinin müşahidəyə daxil edilməsi məsələsi müşahidəyə cəlb olunan sənaye müəssisələrinin mütəxəssisləri ilə birlikdə statistika orqanlarında olan məlumatları nəzərə alaraq fərdi qaydada həll edilir. Müşahidə üçün seçilmiş sənaye məhsulları Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən hazırlanmış "Sənaye Məhsullarının Statistik Təsnifatı" əsasında kodlaşdırılır.

***Əsas göstəricilər:***

- Mədənçıxarma sənayesi üzrə istehsalçı qiymət indeksləri;
- Emal sənayesi üzrə istehsalçı qiymət indeksləri;
- Elektrik enerjisi, qaz, buxar və kondisiyalaşdırılmış hava ilə təchizat üzrə istehsalçı qiymət indeksləri;
- Su təchizatı, tullantıların təmizlənməsi və emalı üzrə istehsalçı qiymət indeksləri;
- Sənaye məhsullarının istehsalçı qiymət indeksləri.

***Əsas statistik məlumatlar:***

- Cari ayın əvvəlki aya nisbətən qiymət dəyişikliyi;
- Cari rübün əvvəlki rübə nisbətən qiymət dəyişikliyi;
- Cari ayın əvvəlki ilin müvafiq ayına nisbətən qiymət dəyişikliyi;
- Cari rübün əvvəlki ilin müvafiq rübünə nisbətən qiymət dəyişikliyi;
- Cari ilin müvafiq dövrünün əvvəlki ilin müvafiq dövrünə nisbətən qiymət dəyişikliyi;
- Cari ayın əvvəlki ilin dekabr ayına nisbətən qiymət dəyişikliyi.

***Sorğu vərəqəsi***

Sənaye məhsullarının istehsalçı qiymət indeksləri sənaye müəssisələri tərəfindən təqdim olunmuş sənaye məhsullarının qiymət məlumatları əsasında hesablanır. Sənaye müəssisələri qiymət haqqında məlumatları Dövlət Statistika Komitəsi tərəfindən təsdiq olunmuş 1-SQ (istehsalçı) №-li aylıq hesabat forması vasitəsilə


Azərbaycan Respublikası, Bakı şəhəri, İnşaatçılar prospekti 136
əlaqə: elmang@azstat.org, +994 12 538 52 72

hesabat ayının 25-dən gec olmayaraq yerləşdiyi rayonun (şəhərin) yerli statistika orqanına təqdim edir. Yerli statistika orqanı müəssisələr tərəfindən qiymət haqqında təqdim olunmuş məlumatları hər ayın 30-dan gec olmayaraq, Dövlət Statistika Komitəsinin Qiymət statistikası şöbəsinə elektron sənəd dövriyyəsi vasitəsilə göndərir.

## 2. Aktuallıq

SQİ-nin hesablanması Beynəlxalq Valyuta Fondunun və Beynəlxalq Əmək Təşkilatının birgə hazırladıqları "İstehsalçı qiymət indekslərinin hesablanmasına dair təlimat – nəzəriyyə və təcrübə" (Producer Price Index Manual - Theory and Practice) ilə müəyyənləşdirilmiş beynəlxalq standartlara və tələblərə uyğun həyata keçirilir. SQİ-nin hesablanması üçün modifikasiya edilmiş Laspeyres düsturundan istifadə edilir. Müşahidəsi aparılan məhsulların düzgün seçilməsi məcmu istehsalçı indekslərinin doğruluğuna zəmanət verir. Sənaye məhsullarının istehsalçı qiymət indekslərinin hesablanması üçün seçilən müəssislərdə ən reprezentativ məhsulların növləri seçilir. Hər ilin yanvar ayında müəssisənin istehsal etdiyi məhsulların cəmi həcmində xüsusi çəkisi böyük olan məhsul növləri seçilir və həmin məhsul növlərinin qiymətləri hər ay müşahidə olunur. Sənaye istehsalının strukturunda illik dəyişikliklərlə əlaqədar, indekslərin hesablanması üçün hər il çəki strukturlarında dəyişiklik edilir. İqtisadi fəaliyyət növlərinə uyğun olaraq sənayenin ayrı-ayrı seksiyaları, bölmələri və mal qrupları üzrə məcmu qiymət indeksinin hesablanması üçün baza çəkilərinin strukturu yaradılır. Müəssisələrdə müşahidə olunan məhsul növləri və mal qrupları üzrə baza çəkiləri kimi, bu məhsul növlərinin il ərzindəki dəyəri haqqındakı məlumatlardan istifadə olunur. Bütün səviyyələrdə çıxış cədvəlləri alınaraq istifadəçilərin tələbatlarının ödənilməsinə xidmət edir.

## 3. Dəqiqlik

SQİ-nin hesablanması və qarşıya qoyulan vəzifələrin keyfiyyətli həlli üçün Qiymət statistikası şöbəsi ilk növbədə yerli statistika orqanlarından qəbul edilən ilkin məlumatların keyfiyyətinin yaxşılaşdırılması istiqamətində mütəmadi olaraq metodoloji işləri davam etdirir. Yerli statistika orqanlarının əməkdaşları mütəmadi

olaraq seminarlarda iştirak edir və hər hansı metodoloji yeniliklər baş verərsə onlar operativ olaraq məlumatlandırılırlar.

### *D2. Əhatə olunma üzrə xətanın səviyyəsi*

***Cədvəl № 1***

| | 2008 | 2009 | 2010 | 2011 | 2012 |
|---|---|---|---|---|---|
| Hesabatı təqdim edən statistik vahidlərin siyahısında vahidlərin sayı | 397 | 491 | 497 | 487 | 677 |
| Münasib olmayan statistik vahidlərin sayı | 0 | 0 | 0 | 0 | 0 |
| Əhatə olunma üzrə xətanın səviyyəsi (%) | ... | ... | ... | ... | ... |

### *D4. Sorğuya cavab vermiş vahidlərin xüsusi çəkisi (hesabat intizamı)*

***Cədvəl № 2***

| | 2008 | 2009 | 2010 | 2011 | 2012 |
|---|---|---|---|---|---|
| Məlumatların toplanması üçün təyin olunmuş statistik vahidlərin sayı | 397 | 491 | 497 | 487 | 677 |
| Bir neçə dəyişən üçün məlumatları təqdim etmiş statistik vahidlərin sayı | 397 | 491 | 495 | 481 | 644 |
| Sorğuya cavab vermiş statistik vahidlərin xüsusi çəkisi (%) | 100,0% | 100,0% | 99,6% | 98,8% | 95,1% |

### *D6. İmpyutasiya səviyyəsi*

Müşahidəyə cəlb edilən bəzi sənaye məhsullarının istehsalı mövsümi xarakter daşıdığı üçün yalnız ilin müəyyən aylarında istehsal olunur. Müəssisə bir qayda olaraq bu malların istehsalının dayandırıldığı dövrdə hesabatlarda qiymətlər haqqında heç bir məlumat göstərmir. Buna baxmayaraq məhsul istehsalının müvəqqəti dayandırıldığı dövrdə onun yüklənməsi (realizə olunması) davam etdirilə bilər və müəssisə bu halda təqdim olunan hesabatlarda yüklənmiş məhsulların qiymətləri haqqında məlumatları göstərir. Bundan başqa sənaye müəssisələrinin müəyyən səbəblər üzündən istehsalı dayandırması nəticəsində bəzi məhsulların qiymətləri müşahidədən kənarda qala bilər.

Əgər mövsümi malların müəssisədən yüklənməsi həyata keçirilmirsə və onların faktiki qiymətləri yoxdursa və ya hər hansı məhsulun istehsalı qeyri-müəyyən vaxta dayandırılıbsa, onda bu məhsulların qiymət indeksləri impyutasiya metodu tətbiq


Azərbaycan Respublikası, Bakı şəhəri, İnşaatçılar prospekti 136
əlaqə: elmang@azstat.org, +994 12 538 52 72

ediləræk hesablanır. Bu zaman digər sənaye müəssisələri tərəfindən istehsal edilən eyni məhsul növünün qiymət dəyişməsindən, əgər sənaye müəssisələri tərəfindən eyni məhsul növündən istehsal edilmirsə məhsulun daxil olduğu qrup üzrə qiymət dəyişməsindən istifadə edilir.

***Cədvəl № 3***

| 2013-cü ilin mart ayı üzrə impyutasiya səviyyəsi | |
|---|---|
| Sətirlərin sayı | Sənaye məhsulları |
| Cəmi | 5187 |
| İmpyutasiya olunmuş | 1967 |
| Nisbəti (impyutasiya səviyyəsi) | 37,9 % |

## 4. Vaxtlı-vaxtında olma və tam vaxtında yerinə yetirmə

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin "Yerli statistika orqanları üçün statistik işlər proqramı"na əsasən yerli statistika orqanlarından ilkin məlumatlar hesabat ayının 30-u toplanır. Əldə olunan ilkin məlumatlar dərhal təhlil olunur və bu təhlil əsasında indeks hesablanır. Hesablamanın nəticəsinə əsasən ilk nəticələr hazırlanır. İlkin məlumatların alınması ilə ilk nəticələrin (həmçinin son nəticələrin) hazır olma vaxtı arasında vaxt intervalı (laq) 7-8 gün arasında dəyişir.

*2013-cü ili əhatə edən bir neçə ay üzrə* ***V2 (hesabat dövrünün sonuncu günündən son nəticələrin nəşr gününə qədər günlərin sayı)*** *göstəricisi (son nəticələrin vaxtlı-vaxtında olması)*

***Cədvəl № 4***

| Hesabat dövrü | 30.01.2013 | 28.02.2013 | 30.03.2013 |
|---|---|---|---|
| Nəşr tarixi | 13.02.2013 | 13.03.2013 | 16.04.2013 |
| Aralıq vaxt (laq), təqvim günü | 14 gün | 13 gün | 17 gün |
| Aralıq vaxt (laq), iş günü | 10 gün | 8 gün | 12 gün |


Azərbaycan Respublikası, Bakı şəhəri, İnşaatçılar prospekti 136
əlaqə: elmang@azstat.org, +994 12 538 52 72

*2013-cü ili əhatə edən bir neçə ay üzrə* ***V3*** *göstəricisi (nəşrin tam vaxtında yerinə yetirilməsi)*

***Cədvəl № 5***

| Hesabat dövrü | 30.01.2013 | 28.02.2013 | 30.03.2013 |
|---|---|---|---|
| Elan edilmiş nəşr tarixi | 13.02.2013 | 13.03.2013 | 16.04.2013 |
| Faktiki nəşr tarixi | 12.02.2013 | 11.03.2013 | 17.04.2013 |
| Aralıq vaxt (laq) | -1 | -2 | 1 |

## 5. Bərabər giriş və aydınlıq

SQİ üzrə yekun məlumatlar hazırlandıqdan sonra istifadəçilərin tələbatlarının ödənilməsi məqsədi ilə bir neçə yayım vasitəsindən istifadə olunur. Belə ki, yekun məlumatların hesablanması prosesi yekunlaşdıqdan sonra press-reliz, aylıq və illik məlumatlar əks olunmuş bülleten, BVF-nin xüsusi standartları üzrə hazırlanmış cədvəllər, illik məlumatlar əks olunmuş statistik məcmuə Komitənin veb-səhifəsində PDF formatında əks olunur. İllik məlumatlar Komitənin veb-səhifəsindəki statistik məlumat bazası bölməsində də yerləşdirilir. http://www.azstat.org/MESearch/search?departament=11&lang=az. Bundan əlavə göstəricilər və hesabat formalarına dair metaməlumatlar, həmçinin digər metodoloji izahlar da mövcuddur (http://www.stat.gov.az/menu/7/)

***Nəticələrin yayımlanması üçün istifadə olunan vasitələr***

| Sıra №-si | Vasitə | Əldə edilmə yeri |
|---|---|---|
| 1 | Dövlət Statistika Komitəsinin veb-saytı | www.stat.gov.az |
| 2 | Ekspress məlumatlar, press-relizlər | www.stat.gov.az |
| 3 | Nəşr olunan bülletenlər | http://www.stat.gov.az/source/price_tarif/ |
| 4 | Nəşr olunan statistik məcmuələr | http://www.stat.gov.az/source/price_tarif/ |
| 5 | Məlumat bazası | http://www.azstat.org/MESearch/search?departament=11&lang=az |
| 6 | Dövlət statistika orqanlarına göndərilən sorğulara cavablar | - |
| 7 | "Azərbaycan rəqəmlərdə" | http://www.stat.gov.az/menu/6/statistical_yearbooks/ |

| | | |
|---|---|---|
| **8** | “Azərbaycanda qiymətlər” | http://www.stat.gov.az/menu/6/statistical_yearbooks/ |
| **9** | “Azərbaycanın statistik göstəriciləri” | http://www.stat.gov.az/menu/6/statistical_yearbooks/ |
| **10** | “Azərbaycan faktlarla” | - |

***BA1. Kağız məruzələr üçün abunələrin və sifarişlərin sayı***

SQİ-yə dair məlumatlar kağız formasında Qiymət statistikası şöbəsi tərəfindən hazırlanan “İstehsalçı qiymət indeksləri” adlı aylıq bülleten vasitəsilə təqdim olunur. Bülleten ümumi olaraq 100 nüsxə çap olunur ki, onlardan:

- 36 nüsxəsi müxtəlif nazirliklərə və digər dövlət orqanlarına, həmçinin yerli və xarici təşkilatlara;
- 55 nüsxə rayon (şəhər) statistika idarələrinə;
- 9 nüsxə Dövlət Statistika Komitəsində digər şöbələrə paylanılır.

***BA2. Onlayn məlumat bazasına girişlərin sayı***

http://www.stat.gov.az/link_click_counter/-də qiymət statistikası məhsulundan istifadəçilərin istifadə %-ləri daimi əks etdirilir.

**6. Uyğunluq (əlaqələndirmə) və müqayisəlilik**

SQİ-nin hesablanması bütün ölkələr üçün eyni olan ümumi nəzəriyyə, əsasən də qiymətlərin qeydiyyatı qaydaları, təmsilçi malların (xidmətlərin) və baza müəssisələrinin seçilməsi və onların təsnifatı, indeksin hesablanması metodologiyasına (düsturlar, çəki elementləri) əsaslanır.

***UM1. Verilmiş dinamika sırasının uzunluğu***

Sənaye məhsullarının istehsalçı qiymətləri indeksinin nəticələri dinamika sıralarında əks etdirilir. Bu göstərici 1990-cı ildən hazırkı dövrədək aylar üzrə əks etdirilir.

Dinamika sıralarında aşağıdakı indekslər əks etdirilir:

- Aylıq indeks;
- Rüblük indeks;
- İllik indeks;

- İllik orta indeks.

## 7. Çıxış keyfiyyət komponentləri arasında seçim

Şöbə SQİ-nin hesablanması zamanı bütün keyfiyyət aspektlərinin ayrı-ayrılıqda yaxşılaşdırılması üçün mümkün imkanlardan istifadə edir və bu sahədə müsbət nəticələrin alınması istiqamətində işlərini davam etdirir. Belə ki, aktuallıq aspekti üzrə məlumatların yığımı, emalı və yayılması zamanı operativlik hər zaman gözlənilir. Dəqiqlik aspekti üzrə ilkin məlumatların toplanmasına daim nəzarət edilir və mütəmadi olaraq məlumatların dürüstlüyü yoxlanılır. Vaxtlı-vaxtında olma aspekti üzrə hər ilin əvvəlində göstəricilərin yayımlanması barədə təqvim hazırlanaraq Komitənin internet səhifəsində yerləşdirilir. Təqvimə uyğun olaraq göstəricilər haqqında məlumatlar istehsalçı qiymətləri bölməsi üzrə hər ay veb-səhifədə yerləşdirilir.

## 8. İstifadəçi tələbatlarının və qavramalarının qiymətləndirilməsi

Şöbə tərəfindən istifadəçilərlə hər il mütəmadi olaraq görüş keçirilir. Görüşdə istifadəçilərin tələbatlarının ödənilməsi məqsədi ilə onlar tərəfindən verilən təkliflər mümkün qədər nəzərə alınır, tələbatın ödənilməsi istiqamətində növbəti illərdə şöbə öz işini qurur. Sonuncu dəfə 2010-cu ildə istifadəçilər arasında DSK-nın Məlumatların yayılması şöbəsi tərəfindən sorğu keçirilib və respondentlərin 66,5 faizi tam, 31,2 faizi isə qismən qiymət indekslərinə inandıqlarını bildirmişlər.

## 9. İqtisadi səmərəlilik və respondentlərə düşən yük

Rəsmi statistikanın keyfiyyətliliyini və ictimaiyyətin statistikaya inamını təmin etmək üçün bu sahədə proqramların həyata keçirilməsi üzrə işlərin təşkili və aparılması statistika məlumatlarının düzgünlük, obyektivlik, müasir şəraitə uyğunluq, məxfilik və şəffaflıq prinsipinə əsaslanır.
Şöbə sənaye məhsullarının istehsalçı qiymətləri indeksinin hesablanması üçün tərtib olunan bazanın tərkibinə hər il yenidən baxır. Belə ki, hər ilin sonunda bazaya daxil olan müəssisələrin fəaliyyəti haqqında məlumatlar araşdırılır və növbəti ilin yanvar ayında fəaliyyəti və istehsalı dayandırılmış müəssisə və məhsullar (xidmətlər) yeniləri ilə əvəz edilir.

## 10. Məxfilik, şəffaflıq və təhlükəsizlik

Rəsmi statistikanın aparılması üçün yığılan, işlənən və məlumatlar bazasına daxil edilən, birbaşa və ya dolayı yolla statistik vahidlərin tanınmasına və beləliklə də, ilkin məlumatların əldə edilməsinə imkan verən hüquqi və fiziki şəxslərin ilkin statistik məlumatları konfidensial sayılır və statistik sirdir. Bu baxımdan da şöbə ilkin məlumatların məxfiliyinin qorunmasını daim izləyir və bu sahədə lazımi tədbirlər görür.

## 11. Yekun

SQİ-nin proseslər üzrə daha keyfiyyətli qurulması məqsədi ilə impyutasiya olunan məhsulların uçotunun dəqiq və mükəmməl aparılması məqsədi ilə gələcəkdə bu sahənin proqramlaşdırılması və keyfiyyətinin yüksəldilməsi istiqamətində işlərin davam etdirilməsi məqsədəuyğun hesab edilir.


Azərbaycan Respublikası, Bakı şəhəri, İnşaatçılar prospekti 136
əlaqə: elmang@azstat.org, +994 12 538 52 72